# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Azərbaycan Respublikası dövlət vergi orqanlarının vəzifəli şəxsləri üçün xüsusi geyim formasının və fərqləndirmə nişanlarının təchizat norması və istifadə müddətləri”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 270 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

“Dövlət vergi orqanlarında xidmət haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 539 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 12 noyabr tarixli 1875 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 5 dekabr tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1109; 2010, № 1, maddə 55; 2017, № 10, maddə 1902) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası dövlət vergi orqanlarının vəzifəli şəxsləri üçün xüsusi geyim formasının və fərqləndirmə nişanlarının təchizat norması və istifadə müddətləri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1.I bölmə üzrə:

1.1.34-cü hissədə “Göy və mavi” sözləri “Mavi” sözü ilə əvəz edilsin;

1.2.39-cu hissədə “mexli” sözü “xəzli” sözü ilə əvəz edilsin.

2.II bölmə üzrə:

2.1.30-cu hissədə “mexli” sözü “xəzli” sözü ilə əvəz edilsin;

2.2.31-ci hissədə “Göy və mavi” sözləri “Mavi” sözü ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 8 fevral 2023-cü il

№ 41